**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.282**

**SƏİDƏ HACIYEVA***

# RƏHİLƏ HƏSƏNOVANIN FORTEPİANO ƏSƏRLƏRİNİN ARAŞDIRILMASININ SEMİOTİK ASPEKTLƏRİ

*Təqdim etdiyimiz bu məqalə XX əsrin 70-ci illərindən başlayaraq XXI əsrin ilk onilliklərini Azərbaycan bəstəkarlıq məktəbində özünəməxsus yaradıcı və bədii axtarışları ilə seçilən bəstəkar Rəhilə Həsənovanın yaradıcılığı,xüsusilə isə onun fortepiano əsərlərində semiotik aspektlərlə vəhdətindən bəhs edir. .Onun yaradıcılığının əsas qayəsini bədii müstəvidə yeni cığırların axtarışı,yeni mövzuların bəstəkar yaradıcılığına gətirilməsi təşkil edir.Bir maraqlı faktı da qeyd edək ki,Rəhilə Həsənovanın novator axtarışları birmənalı şəkildə milli konseptsfera əsasında aparılmışdır.Onun fortepiano əsərləri zəngin melodik quruluşu, dərin emosional ifadəsi və müasir üslubu ilə seçilir. Rəhilə Həsənovanın fortepiano üçün yazdığı əsərlər, həm texniki, həm də emosional cəhətdən çətinliklər yaradan, dinamik dəyişikliklərlə dolu kompozisiyalardır.Buna misal olaraq "Jasmin ləçəkləri","Alla meykhana","Sonata Monad" və s.əsərlərin adını çəkmək olar.Bəstəkarın fortepiano əsərləri Azərbaycan musiqisinin ənənəvi melodik və ritmik elementlərini yenilikçi üslubda təqdim edərək dinləyiciyə həm milli, həm də müasir bir təcrübə yaşadır.Onun musiqisi Azərbaycan milli motivlərini orijinal və yaradıcı bir şəkildə təqdim edir, eyni zamanda dinləyiciyə geniş təsir gücünə malikdir. Belə ki,Rəhilə Həsənovanın əsərlərində həm Azərbaycan xalqınınn qeyri maddi-mənəvi irsinin,həm də eyni zamanda maddi mədəniyyətinin müəyyən işarələri,müəyyən ünsürləri orijinal şəkildə öz bədii əksini tapmışdır.*

***Açar sözlər**: Azərbaycan musiqisi,Rəhilə Həsənova, fortepiano əsərləri, semantika, "Jasmin ləçəkləri","Alla meykhana","Sonata Monad"*

## Giriş

Azərbaycan bəstəkarlarının yaradıcılığını müasir elmi paradiqma kontekstində araşdırılması musiqişünalığımızın aktual problemlərindən biridir. Heç şübhəsiz ki, çağdaş dövrün metodoloji prinsiplərinin tətbiqi tədqiqata cəlb olunan əsərlərin dərin qanunauyğunluqları haqqında daha müfəssəl məlumat əldə etmək üçün zəmin yaradır. XX əsrin ən geniş yayılmış elmi cərəyanlarından biri olan semiotika, məlum olduğu kimi, işarə sistemlərinin quruluşunu və onların fəaliyyət prinsiplərini öyrənən elm sahəsidir. Bu gün musiqi semiotikası özünün metodoloji bazasında struktur-tipoloji və semantik təhlil prinsiplərini cəmləşdirən elmi istiqamətdir. Bu baxımdan semiotik yanaşma Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələrinin əəsərlərinin araşdırılmasında da faydalı ola bilər.

Rəhilə Həsənovanın yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində özünəməxsus yer tutur. Onun əsərləri milli musiqinin autentik ənənələrini ən modern bəstəkarlıq texnikaları ilə uzlaşdıran unikal bir yanaşmaya malikdir.Rəhilə Həsənova yaradıcılığında Azərbaycan xalq musiqisinin elementlərini dərindən hiss edərək,onları yeni orijinal tərzdə təcəssüm etdirir. Maraqlıdır kı, bəstəkar milli incəsənətin ən əski təzahür formaları ilə çağdaş dövrün ideya və obrazlarının uzlaşma nöqtələrini aşkar etməyə nail olmuşdur.Rəhilə Həsənovanın yaradıcılığında biz ilk dəfə müraciət olunmuş bir sıra musiqi formaları görə bilərik. Onlardan biri kimi Azərbaycan klassik musiqimizdə ilk dəfə olaraq milli inanclarımızdan qaynaqlanan və dini rituallırı orijinal şəkildə təfsir edən konsepti qeyd edə bilərik. Bu mühüm konseptin semantik vahidlərini və özünəməxsus freymlərinin təzahür formaları "Qəsidə","Mərsiyə","Dərvis","Ayin" və s. əsərlərdə təfsir olunmuşdur.

R. Həsənovanın fortepiano əsərləri texniki cəhətdən çox zəngindir və ifaçının dərin emosional ifadə qabiliyyətini tələb edir. Onun kompozisiyalarında geniş dinamik diapazon, dolğun harmoniyalar və müxtəlif rənglərlə zəngin fakturalar mövcuddur. Bəzi əsərlərində gərgin və enerjili hissələr yavaş və lirizm dolu bölmələrlə əvəz olunur, bu da dinləyiciyə fərqli emosional keçidlər yaşadır. R.Həsənovanın bəzi fortepiano əsərləri, Azərbaycanın qədim rəqsləri və xalq musiqisindən ilhamlanaraq yazılmışdır ki, bu da onun yaradıcılığında milli köklərə bağlılığı göstərir.

Onun musiqisi, həm peşəkar ifaçılar, həm də gənc pianoçular üçün böyük bir sənət mənbəyidir. Həsənovanın fortepiano əsərləri Azərbaycan musiqi təhsilində geniş istifadə olunur və milli musiqi

irsini yaşadan əhəmiyyətli əsərlər sırasına daxildir. Bu əsərlər həm Azərbaycan musiqi mədəniyyətini tanıtmaq, həm də fortepiano repertuarını zənginləşdirmək baxımından böyük dəyərə malikdir.

Rəhilə Həsənovanın "Çeşmə" əsəri Azərbaycan musiqisinin immanent qanunauyğunluqlarını və təbiət mövzusunu ifadə edən, dinləyiciyə dərin duyğular aşılayan bir fortepiano kompozisiyasıdır. Bu əsərdə metaforik şəkildə təbiətin ali gözəllikləri və əbədiyaşar çeşmənin insan ruhunu təmizləyən gücü musiqi vasitəsilə vəsf olunur. "Çeşmə" Azərbaycan musiqisində nadir bir mövzu olan təbiətin ecazkarlığını ifadə etməklə yanaşı, bəstəkarın müasir və yenilikçi üslubunu da ortaya qoyur.Bu əsər bəstəkarın milli qaynaqlara bağlılığını göstərir və yanaşmanı modern bir tərzdə çatdırır. Əsə əsasən çox zərif melodik faktura, minimalistik üslubda təkrarlanan ritmik frazalar və sanki çeşmədən axan suyun sakitliyini əks etdirən harmonik birləşmələrdən ibarətdir. Fortepiano aləti vasitəsilə bu incə nüansların yaradılması ifaçıdan yüksək emosionallıq və texniki hazırlıq tələb edir. Əsərdəki melodik ardıcıllıqlar, çeşmənin ritmik axışını xatırladaraq bir-birinə keçid edir və bu da əsərə axıcılıq, harmoniya gətirir.

Rəhilə Həsənovanın fortepiano əsərlərinə nəzər salsaq, "Alla Meyxana" əsəri Azərbaycan musiqi mədəniyyətində unikal bir yer tutur və bəstəkarın milli musiqi janrlarını yenilikçi şəkildə işləmək bacarığını nümayiş etdirir. Bu əsər, Azərbaycanın qədim musiqi irsi olan meyxana janrından ilham alaraq bəstəkarın özünəməxsus üslubunu birləşdirir və musiqi ilə ədəbi formanın dinamik əlaqəsini vurğulayır. Ənənəvi olaraq, meyxana şeir və musiqi arasında sıx əlaqəyə malikdir, özəlliklə də sosial və bəzən fəlsəfi mövzuları əks etdirən, rədif və ritmik xüsusiyyətlərə malik şeir janrıdır. R.Həsənova isə bu ənənəvi janrı müasir musiqi texnikaları ilə uzlaşdıraraq, fortepiano alətinə məxsus artikulyasiya özəllikləri ilə meyxananın ritmik və melodik elementlərini əks etdirmişdir.

Bu əsərdə poliritmik üsullar və modal xüsusiyyətlər zəngin bir kompozisiya quruluşunun yaranmasına səbəb olur. Əsərdə həm ritmik, həm də melodik baxımdan çox mürəkkəb elementlər var ki, bu da fortepiano ifaçısının texniki bacarığını ön plana çıxarır. Həsənovanın məqsədi, meyxananın yalnız mətnli formasını deyil, eyni zamanda bu janrın ritmik enerjisini və onun Azərbaycan xalqına xas emosional dərinliyini musiqidə əks etdirmək olmuşdur. Əsərdə bəzən sürətli, atəşli ritmik keçidlər, bəzən də daha sakit və düşüncəli melodiyalar yer alır. Bu kontrast, meyxana janrının özündəki fərqli hissləri və duyğuları da canlandırır.

Rəhilə Həsənovanın "Jasmin Ləçəkləri" adlı digər fortepiano əsəri zəngin lirik palitrası ilə seçilir.Adından da göründüyü kimi, jasmin çiçəyinin həssaslığını və gözəlliyini əks etdirərək, bu əsərdə təbiətin və çiçəklərin zərifliyini musiqi vasitəsilə təsvir edir, dinləyicini poetik bir dünyaya aparır. "Jasmin Ləçəkləri" əsəri Həsənovanın incə melodik duyumunu, rəngarəng harmonik dilini və təbiətdən ilham alan musiqi ifadəsini ön plana çıxarır. Kompozisiyanın melodik xətti jasmin çiçəyinin ləçəklərinin yüngül bir küləkdə titrəməsi kimi axıcı və zərifdir. Musiqidəki dinamik dəyişikliklər və melodik frazalar, əsərə təravətli və xoş bir atmosfer bəxş edir. Bu zəriflik və axıcılıq, dinləyiciyə təbiətin sakit və ruh oxşayan gücünü, hiss isə rəngarəng harmonik keçidlər və zəngin fakturalar bəxş edir, bu da əsərə lirik və nostaljik bir hava qatır. R.Həsənova əsərdə təbiətin gözəlliyini və həyatın keçiciliyini vurğulamaqla yanaşı, musiqinin dərin emosional təsirini də artırır. Əsərdə çiçəyin simvolik mənası – zəriflik, təmizlik və gözəllik musiqi dili ilə incə şəkildə ifadə olunur. Bu isə dinləyiciyə həyatın və təbiətin gözəlliyinə heyran qalma duyğusunu yaşadır.

Rəhilə Həsənovanın "Sonata Monad"adlı digər fortepiano əsəri isə Azərbaycan musiqisində yenilikçi bir yanaşmanı əks etdirən, mürəkkəb və fəlsəfi məzmunlu bir fortepiano kompozisiyasıdır. Bu əsər, adından da göründüyü kimi, fəlsəfi "monad" anlayışından ilham alır. Monad — antik yunan və xüsusilə də Leibniz fəlsəfəsində "bütün kainatın ən kiçik və bölünməz tərkib hissəsi" olaraq qəbul edilir. Həsənovanın bu əsəri, bu fəlsəfi konsepsiyanı musiqi dilində təsvir etməyə çalışır və həyatın əsas elementləri, harmoniya və vahidlik ideyalarını musiqi vasitəsilə ifadə edir.

"Sonata Monad" əsəri üç hissədən ibarət klassik sonata formasına uyğun olaraq yazılmışdır. Hər hissə, monad anlayışının fərqli cəhətlərini əks etdirir. Birinci hissə, dinamik və enerjili temaları ilə yaradılış və kainatın başlanğıcına işarə edir. Bu hissədəki melodiyalar canlı və güclü dinamika ilə zəngindir, bu isə yaradılışın enerjisini və kainatın hərəki gücünü əks etdirir. İkinci hissə daha sakit, lirik və meditasiyaya bənzər melodiyalarla doludur, burada monadın daxili sükunətini və mənəvi

dünyasını canlandırır. Üçüncü hissə isə yenidən hərəkətli və inkişaf edən bir formaya qayıdır, bu isə monadın sonsuz dövriyyə prosesini simvollaşdırır.

Həsənovanın "Sonata Monad" əsəri həm melodik, həm də harmonik baxımdan zəngin struktura malikdir. Əsərin hər hissəsi, tonallıqlar və ritmik dəyişikliklərlə öz fərdi xarakterini ortaya qoyur, bu isə dinləyiciyə əsərdəki fərqli fəlsəfi aspektləri hiss etməyə imkan yaradır. Həsənova burada avanqard musiqi texnikalarından istifadə edərək, fortepiano üzərində geniş emosional və texniki diapazonu əks etdirən zəngin bir musiqi dilinə nail olmuşdur. Musiqinin axıcılığı və inkişafı, monadın bütün kainatı əks etdirən bir varlıq olduğu fəlsəfi düşüncəsini musiqidə təcəssüm etdirir.

Beləliklə, Rəhilə Həsənovanın fortepiano əsərlərinin təhlilii bəstəkarın özünəməxsus üslubunun milli semantikadan qaynaqlandığını sübuta yetirir.

## ƏDƏBİYYAT

**1.**Dadaşova Z. "Rəhilə Həsənovanın valehedici bədii kəşfləri" məqaləsi,525.az sayt
2. Dadaş-zadə K. "Aşıqşünaslığın tarixi və nəzəriyyəsi" ,Bakı-2019,ADMİU-mətbəəsi,S..98-105
3. Ələsgərli K –Rəhilə Teymur Həsənovanın musiqi dünyası,Bakı-Təknur 2009, ,S.95-100
4. Əsgərova S.H.–Rəhilə Teymur Həsənovanın Yaradıcılıq Çeşməsi,2009, №573 ,Bakı "Ləman nəşriyyat poliqrafiyası" MMC, S.83-92

**Saida Hajiyeva**

## SEMIOTIC ASPECTS OF STUDYING RAHILA HASENOVA'S FORTEPIANO WORKS

This article, which we have presented, talks about the creativity of Rahila Hasanova, a composer who stood out for her unique creative and artistic pursuits in the Azerbaijan school of composition, starting from the 70s of the 20th century and the first decades of the 21st century, and especially about her unity with semiotic aspects in her piano works. The main goal of her creativity is the search for new paths on the artistic level and the introduction of new themes into the composer's creativity. Let us note an interesting fact that the innovative searches of Rahila Hasanova were carried out unequivocally on the basis of the national concept sphere. Her piano works have a rich melodic structure, deep emotional expression and modern distinguished by its style.

Rahila Hasanova's works for the piano are compositions full of dynamic changes, which create both technical and emotional difficulties. Examples of this are "Jasmine Petals", "Alla Meykhana", "Sonata Monad" and others. The composer's piano works Presenting the traditional melodic and rhythmic elements of Azerbaijani music in an innovative style, he gives the listener a national and modern experience. Thus, in the works of Rahila Hasanova, certain signs and certain elements of the non-material and spiritual heritage of the Azerbaijani people, as well as the material culture, have found their artistic reflection in an original way.

**Keywords**: *national, Azerbaijani music, Rahila Hasanova, works, new.*

**Саида Гаджиева**

## СЕМИОТИЧЕСКИЕ АСПЕКТЫ ИЗУЧЕНИЯ ПРОИЗВЕДЕНИЙ ДЛЯ ФОРТЕПИАНО РАХИЛИ ГАСАНОВОЙ

Статья посвящена исследованию семиотических аспектов фортепианного творчества Рахили Гасановой, яркого представителя азербайджанской композиторской школы. Начиная с 70-х годов XX века и первых десятилетиях XXI века ее творчество отличалось поиском новых новых тем и оригинальных средств их воплощения. Отметим тот интересный факт,

что новаторские поиски Рахили Гасановой осуществлялись на сугубо национальной основе. Концептуальная сфера ее фортепианных произведений имеет богатую мелодическую структуру, глубокую эмоциональную выразительность и отличантся современным стилем. Сочинения Рахили Гасановой для фортепиано – это композиции, полные динамических изменений, которые создают как технические, так и эмоциональные трудности. Примерами тому являются «Лепестки жасмина», «Алла Мейхана», «Соната Монад» и другие. Фортепианные произведения композитора представляют собой синтез мелодических и ритмических элементов традиционной музыки с современной композиторской техникой. Таким образом, в семантическом пространстве творчества Рахили Гасановой нашли своеобразное художественное преломление отдельные знаки нематериального и материального наследия азербайджанского народа.

**Ключевые слова:** *азербайджанская музыка, Рахиля Гасанова, фортепианные произведения, семантика, «Лепестки жасмина», «Алла Мейхана», «Соната Монад».*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.01.2025**
**Son daxilolma tarixi:29.02.2025**